

# Bakı növbəti sürət həyəcanı yaşayır

**Sürət, həyəcan və yarış həvəskarlarının səbirsizliklə gözlədiyi Formula 1 yenidən öz izləyicilərinə qovuşdu. Bu il martın 26-dan 28-dək Bəhreyndə keçirilən mövsümün birinci Qran prisi maraqlı yarışa, eləcə də gərgin rəqabətə evsahibliyi etdi. Bəhreyn Qran prisini Lewis Hamilton (“Mercedes”) qalibiyyətlə tamamlasa da, ondan çox cüzi fərqlə geri qalaraq ikinci olan Maks Verstappen (“Red Bull”) komandasının və özünün liderliyə namizəd olduğu mesajını verdi.**

# Formula 1 bu gün start götürür



Bu il keçirilən beş Qran Prinin üçündə “Mercedes”in, ikisində “Red Bull”un qalib gəlməsinə baxmayaraq, son Monte Karlo yarışında Hamiltonun yeddinci yeri tutması və heç bir komanda yoldaşının sıralamada ön pillələrdə qərarlaşa bilməməsi cari mövsümün ümumi sıralamasında köklü dəyişikliklərə səbəb olub. Belə ki, “Mercedes” üç Qran pridə qalib gəlsə də ümumi cədvəldə “Red Bull”u irəli buraxıb. Yekunlaşan beş yarışda qalib olan komandaların pilotları da dəyişməyib. “Mercedes”in qalib olduğu bütün yarışları Hamilton, “Red Bull”un qalibiyyətlərində isə Verstappen birinci yeri tutub. Məsələ burasındadır ki, Verstappen qalib gələ bilmədiyi bütün yarışlarda ikinci olub. Bu da onun və komandasının aktivinə əlavə xallar gətirib.

F-1-in bu iki komandası arasında davam edən rəqabət digər rəqibləri kölgədə saxlasa da “Ferrari” və “McLaren” də bu il yaxşı nəticələrlə yadda qalıb. Bu mənada qeyd etmək olar ki, “McLaren”in pilotu Lando Norris İtaliya və Monako Qran prilərində üçüncü yerin sahibi olub. Karlos Sainz (“Ferrari”) isə son yarışı ikinci tamamlayıb.

Ümumilikdə, yarışda on komanda iştirak edir. Əlbəttə, topladığı 149 xalla lider olan “Red Bull” və ondan sadəcə bir xal geri qalan “Mercedes” aşkar favorit hesab edilsələr də, hər zaman sürprizlərlə keçən Bakı Qran prisində Monakodakı kimi gözlənilməz nəticələrin qeydə alınmaq ehtimalı da mövcuddur.

**(ardı 6-cı səhifədə)**

# Formula 1 bu gün start götürür




(əvvəli 1-ci səhifədə)

Nəhayət, bu gün pilotların isinmə turları və ona uyğun aparılacaq sıralama mərhələləri ilə çoxdandır ayrı düşdüyümüz Formula 1 həyəcanı Bakıya qayıdıb. İki gün ərzində davam edəcək bu ön hazırlığın ardınca iyunun 6-da əsas yarışa start veriləcək.

Bakı treki yarışan pilotlar üçün ən ideal dövrələrdən biridir. Lakin qədim şəhərin dar küçələri bəzən sürücülərə çətin anlar yaşadır. Ümumən Formula 1 ictimaiyyətində belə bir fikir formalaşıb ki, Bakı Şəhər Halqası daha çox güc tələb edən trekdir. Bu səbəbdən də burada keçirilən dörd yarışdan üçündə "Mercedes"in qalib gəlməsi təsadüfi deyil. Amma Bakıdakı yarışlar hər zaman dramatik və gözlənilməz nəticələrlə yadda qalıb. Buna görə də əvvəlki nəticələr indidən qalibi təyin etmək üçün yetərli deyil. Bütün bunlar Bakıda keçiriləcək Qran prini mövsümün ən prinsipial yarışı halına gətirir.

Yeri gəlmişkən qeyd edək ki, "Red Bull" 2013-cü ildən bəri ilk dəfədir ki, sıralamaya liderlik edir. Bundan əlavə, Maks Verstappen Monako Qran Prisini qazandıqdan sonra karyerasında ilk dəfə olaraq sürücülər çempionatında birinci sıraya yüksəlib. Lakin hollandiyalı deyib ki, önəmli olan mövsümün sonunda bu pillədə olmaqdır.

Verstappen daha sonrakı açıqlamalarında bildirib ki, Bakı hər iki komanda üçün ("Red Bull" və "Mercedes") mövsümün ən önəmli Qran prisi kimi qəbul edilməlidir.

Əlbəttə, bu da başadüşüləndir. Çünki iki komanda arasında cəmi bir xal fərq var və burada əldə olunacaq nəticələr cari ildəki Formula 1 yarışlarının aqibətinə böyük təsir göstərəcək. "Redd Bull" liderdir, lakin fərq cüzidir. Fərdi göstəricilərə gəldikdə isə 5 yarışın nəticələrinə görə Vestappen Hamiltonu sadəcə dörd xal üstələyir.

Ortaya atılan iddialardan biri də ondan ibarətdir ki, Hamiltonun son yarışdakı 7-ci yeri tutması Verstappendə mənasız süstlük yarada bilər. Və belə olan halda Monakoda yaşananlar bu dəfə "Red Bull" komandasının başına gələrsə, bu heç də gözlənilməz olmayacaq. Son yarışın ardından jurnalistlərin suallarına cavab verərkən Verstappen bu məsələyə də münasibət bildirib. Deyib ki, qarşıda hələ çox uzun yol var. Aramızdakı fərq kiçikdir. "Red Bull" liderliyi ələ keçirməyə çalışırdısa, artıq buna nail ola bilib. Lakin həm də bilirik ki, normal şəraitdə "Mercedes" yenə də ən böyük favoritlərdən biridir.

Həftə sonu yaşananların ona və komandasına çox yaxşı motivasiya verdiyini, əhval-ruhiyyənin ən yüksək səviyyədə olduğunu da vurğulayan lider pilot Bakıdakı yarışı həyəcanla gözlədiyini də sözlərinə əlavə edib.

Daha sonra, müxtəlif növlərdə Hollandiyanı təmsil edən idmançılara verilən "uçan hollandiyalı" ləqəbi ilə çağrılan Verstappenə Bakıdakı yarışla bağlı sual ünvanlanıb. " Necə düşünürsən, Bakı Qran prisində yenidən qələbə qazana biləcəksənmi?" sualına Verstappen maraqlı cavab verib. Bildirib ki, Bakıda sürətli olmaq heç də qələbə qazanmaq mənasına gəlmir. Bu trek güc, dayanıqlılıq və hətta səbr tələb edir. Bakı dairəsi heç bir treklə müqayisə edilməməlidir. Burada döngələr, düzlüklər və dar küçələr digər bütün treklərdən fərqlidir. Bu səbəbdən Azərbaycana gələn bütün idmançılarda fərqli bir həyəcan baş qaldırır. Nələr olacağını yaşayıb görəcəyik.

Formula 1-in Azərbaycanda keçirilməsi, Bakı küçələrinin bu superkarlar üçün döyüş meydanı olması ölkəmiz və xalqımız üçün əvəzolunmaz idman hadisələrindən biridir. Lakin Formula 1 müasir dövr üçün sadəcə idman hadisəsi kimi deyil, qlobal mənada ən böyük, kütləvi, beynəlxalq layihələrdən biridir. Dünyanın hər yerindən olan, müxtəlif dövrlərdə yarım milyard izləyici kütləsi, son illərdə isə 1.5, 2 milyarda qədər yüksəliş göstərdi. İki milyard insanın televiziya vasitəsilə Bakı küçələrində keçirilən yarışları izləməsi, dönə-dönə paytaxtımızın adını çəkməsi həyəcanverici haldır. Nəzərə alsaq ki, il boyu baş tutan Qran prilər dünyanın ən möhtəşəm şəhərlərində, inkişaf etmiş ölkələrin paytaxt və ya iri meqapolislərində keçirilir, onda bu həyəcan bir qədər də artır. Bu il isə iki komanda arasında davam edən rəqabət izləyici saylarında daha böyük artım vəd edir.

Təəssüf doğuran məsələ ondan ibarətdir ki, bu il paytaxtımızda keçiriləcək qran pri azarkeşsiz olacaq. Pandemiya dövrünə təsadüf etdiyindən bu mövsüm dünyanın müxtəlif ölkələrində nəzərdə tutulan qran prilərin bir çoxu tribunasız keçiriləcək. Lakin bu məhdudiyyətlər oyunlara olan marağı azaltmır, qapalı qapılar arxasında keçiriləcək yarışların internet və televiziya üzərindən daha çox izləniləcəyini göstərir.

**İmran ƏLİYEV, "Xalq qəzeti"**

Xalq qəzeti.-2021.- 4 iyun.- S.1;6.